

*HÜMBƏT HƏSƏNOĞLU*

# KROSSVORD

**(Hekayə)**

**Türkiyəyə dincəlməyə gedənlər otellərin dəniz sahilində uzanmaq üçün düzülən çarpayılarını görüblər. Onlar əvvəldən düzülür və insanlar uzanıb dəniz havası və günəş şüalarını qəbul edirlər. Həyat yoldaşımla dəniz sahilinə düşəndə cəmi iki boş çarpayı qalmışdı. Yanımızdakı xanım və bəyi türkcə salamlayıb mən kişinin yanında,həyat yoldaşım da sol tərəfimdə uzandıq. Bu, iki orta yaşlı,slavyan görünüşlü insanlar mənim türkcə salamımı elə aldılar ki,almasaydılar ondan yaxşı olardı.**

Onların davranışına sakit baxdım, sonradan məlum oldu ki, ər və arvad Moskvadan gəliblər,ikisi də professordur. Moskvalıların qalan yerlərin insanlarına yuxarıdan baxmaqlarını hamı yaxşı bilir.

Qayıdıram əvvələ, yəni onların kim olduğunu hələ bilmədiyim zamana. Əslində onlar mənim üçün heç bir maraq kəsb etmirdilər. Arada bir türk animator mənə yaxınlaşdı və mən onunla türkcə danışdım. Qonşularımız tam əmin oldular ki,mən türkəm. Mən elə istəyirdim ki,onlar mənim türk olduğumu və bu cənnət yerlərin də türklərə məxsus olduğunu bir daha bilsinlər. Hə,bu iki professor ruscа krossvord həll edirdilər. Həyat yoldaşım bunların krossvord həll etdiyini görüb öz şlyapasının altından mənə xəfif gülümsədi. O, qarşıda olacaq tamaşanı çox sevirdi. O, belə tamaşaların çox şahidi olsa da,hər dəfə bunu xüsusi maraqla gözləyirdi.

Günlük papağımı üzümə qoyub uzandım. Dəniz ləpələrinin sahilə çatdıqda əmələ gətirdiyi şırıltı səsi qəlbimə xüsusi rahatlıq gətirirdi.

Krossvord və qələm xanımın əlində idi. O sualı oxuyur və əri ilə birlikdə cavab axtarırdılar. Təbii ki,mən də sualları yaxşı eşidirdim. Bu professorların özlərini dartmaqları məndən çox deyəsən həyat yoldaşıma toxunmuşdu. O, öz kitabını oxusa da fikrinin məndə olduğunu dəqiq bilirdim. Mən səsimi çıxartmırdım. Qonşularımız üç sualdan birini tapanda uşaq kimi sevinirdilər və düşünürdülər ki, heyif bu türk onların necə ağıllı olduğunu başa düşmür. Növbəti sual bunları çətin vəziyyətə saldı. Yoldaşım dözməyib kitabı ilə böyrümə yavaşca toxundu,o, tamaşa görməyi arzulayırdı. Papağımı bir az üzümdən aralayıb bunların axtardığı sualın cavabını təmiz rus dilində səsləndirdim. Desəm ki, iki professor eyni zamanda intelektual şok keçirtdilər, hesab edin ki, heç nə demədim. Bunlar mənə elə baxdılar ki, altımdakı kuşetka dil açıb danışsaydı, daha az təəccüblənərdilər. Dalınca da sualın cavabını elmi cəhətdən xırdalayanda hər ikisinin alt çənəsi sinələrinə düşdü. Arxasınca bayaqdan tapa bilmədikləri bütün sualları cavablandırdım. Yoldaşımın çiçəyi çırtdamışdı, qürurla və qalibiyyətlə bu iki prifessorun təəccüb dolu sifətlərinə baxıb gülümsəyirdi.

Sirri açmalıyam, mən rus krossvordlarını çox yaxşı həll edirəm. İki ali təhsilim, on il Rusiyada yaşamağım, orada Universitet və Akademiya bitirməyim,dünyanın otuzdan çox ölkəsində olmağım və ensiklopedik biliklərim krossvord həll etməyə çox yarayır.

İndi mən bu iki professora tələbə kimi baxıb, durub çimməyə getdim.

**Qayıdanda professor qonşularım məni ayaq üstə qarşıladılar və mənimlə tanış olduqlarından məmnunluqlarını bildirdilər, yoldaşım görünür mənim haqda onlara artıq məlumat vermişdi. Sonrakı günlər oteldə bizimlə qarşılaşanda professorlar bu türk oğlu ilə artıq böyük hörmət və ehtiramla salamlaşırdılar.**

**Sumqayıt şəhəri**

**Azad Azərbaycan.- 2022- ci il.- 12 may.- S. 7.**